# Qəbələ yeni yüksəliş mərhələsində

## 2017-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

*Qəbələdə iqtisadiyyatın sürətli inkişafı rayonda işsizliyin aradan qaldırılmasına, insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına müsbət təsir göstərir.*

**İlham ƏLİYEV.**

(Əvvəli 7-ci səhifədə).

Bu sahədə Prezident cənab İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş Dövlət Proqramı peşə təhsilinin inkişafına güclü stimul vermişdir. Azərbaycan Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və həmin strategiya ilə bağlı ölkə başçısının imzaladığı digər Sərəncamla təsdiq olunmuş Fəaliyyət Planında ilk peşə-ixtisas təhsili sahəsində cəmiyyətin tələblərinə uyğun standartların hazırlanması, müasir peşə tədris mərkəzlərinin və komplekslərinin yaradılması nəzərdə tutulmuş və konkret inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

Ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanına uyğun olaraq peşə təhsili və təliminin inkişafı ölkənin 11 əsas prioritet istiqamətlərindən biri kimi müəyyən edilmiş, "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" təsdiq olunmuşdur. Sənəddə peşə təhsili və təlimi sektoru üzrə qısa, orta və uzunmüddətli strateji baxış müəyyən edilmişdir. Bu məqsədlə Qəbələdə gənclərə ilk peşə təhsili verən 2 tədris-təlim mərkəzi fəaliyyət göstərir.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində hazırda 179 nəfər şagird təhsil alır. 2017-ci ildə mərkəzi 141 nəfər bitirmişdir.

Buraxılış qrupu şagirdləri istehsalat təcrübəsi keçmək məqsədi ilə "Qafqaz" Resort Otelinə, "Qafqaz" Riverside Otelinə, "Qafqaz" Sport Otelinə, "Qafqaz" Tufandağ Otelinə, Qəbələ Statistika İdarəsinə, Azərpoçt MMC-nin Qəbələ Filialına, "Fərid" kiçik müəssisəsinə, Yengicə İstirahət Mərkəzinə və digər təşkilatlara göndərilmişlər.

Bildiyiniz kimi rayonda yeni dövlət peşə təhsil mərkəzi tikilərək istifadəyə verilmişdir. Bu məqsədlə pilot layihə olaraq, 3 yeni ixtisas-aqroservis mütəxəssisi, bitkiçilik mütəxəssisi və heyvandarlıq mütəxəssisi ixtisasları üzrə ümumi orta təhsil bazasından təhsil müddəti 2 il olan qruplara şagird qəbulu aparılmışdır. Yeni ixtisaslar üzrə tədrisin müasir kurikulumlar əsasında aparılması qarşıya məqsəd qoyulmuşdur. BMT-nin İnkişaf Proqramı (UNDP), "Brtish Council" və Alman Texniki Əməkdaşlıq Cəmiyyətinin (GİZ) dəstəyi ilə il ərzində məktəbin müəllim və istehsalat təlimi ustaları üçün təlimlər keçirilmişdir. Həmin ixtisaslar üzrə şagirdlər yeni dərsliklərlə təmin olunmuşlar. UNDP-nin dəstəyi ilə keçən tədris ilində şagird və müəllimlər üçün praktik bacarıq və vərdişlərinin inkişaf etdirilməsi məqsədilə bir neçə səfər təşkil edilmişdir. Həmin səfərlər zamanı tədris Azərbaycan Dövlət Aqrar Universitetinin müəllimləri tərəfindən aparılmışdır.



Qəbələ Rayon Məhkəməsinin yeni binası.

Keçən tədris ilində məktəbi bitirən 153 məzunun əksəriyyəti rayonun bir sıra müəssisə və təşkilatlarında, özəl sektorda və fərdi olaraq çalışırlar.

"ASAN peşə" layihəsi çərçivəsində ilk peşə-ixtisas təhsili almaq istəyənlərin qeydiyyatı 2016-2017-ci tədris ilindən etibarən "ASAN xidmət" mərkəzlərində aparılır. Bu tədris ilindən Qəbələ Peşə Məktəbində büdcə hesabına təhsil almaq istəyənlərin qeydiyyatı da "ASAN xidmət" vasitəsi ilə həyata keçirilmişdir.



Rayon kənd təsərrüfatı idarəsinin inzibati binası.

2017-2018-ci tədris ili üçün məktəbə büdcə hesabına 7 peşə üzrə 156 nəfər, ödənişli əsaslarla isə 4 peşə üzrə 68 nəfər şagird qəbul edilmişdir.

Son zamanlar təhsil sahəsində baş vermiş yeniliklər bir daha göstərir ki, peşə təhsili sisteminə diqqət getdikcə artmaqdadır və əmək bazarı, iqtisadiyyatın və müasir qloballaşma prosesinin tələbləri bu sahəni inkişaf etdirməyə zərurət yaradır. Hazırda peşə-ixtisas təhsili və təlimi ciddi islahat mərhələsindədir.

Hesabat ilində Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzi də əhatə dairəsində olan 12 rayonun koordinasiya mərkəzləri ilə əməkdaşlıq edərək vətəndaş cəmiyyətinin inkişafına xidmət edən layihələr həyata keçirmişdir.

2017-ci il ərzində Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi tərəfindən 103 nəfərə müxtəlif növ xidmətlər göstərilmiş, 28 nəfərə 228 aktiv terapiya məşğələsi, 14 nəfərə 27 psixoloji konsultasiya, 11 nəfərə 73 inkişafetdirici məşğələ, 10 nəfərə 68 loqopedik məşğələ,15 nəfərə 105 dil məşğələsi, 2 nəfərə 28 kompüter məşğələsi xidməti göstərilmişdir. Ümumilikdə müxtəlif xidmət, tədbir, təlim və dərnəklərdə 1131 nəfər iştirak etmişdir.

İl ərzində mərkəzin işçiləri 112 ailəyə baş çəkmiş, 8 ailənin problemi həll olunmuş, 26 maarifləndirici tədbir və 2 təlim keçirilmişdir. Bu tədbirlərdə 1036 nəfər iştirak etmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

Hesabat dövrü ərzində rayonun hüquq-mühafizə orqanları tərəfindən ictimai asayişin qorunması təmin olunmuş, cinayətkarlığa qarşı mübarizə tədbirləri gücləndirilmişdir. Keçən il Qəbələ Rayon Polis Şöbəsi tərəfindən 119 cinayət hadisəsi qeydə alınmışdır. Həyata keçirilən tədbirlər nəticəsində cinayət hadisələrinin açılma faizi 97,8 olmuşdur. Bu müddət ərzində cinayətkar qruplarda birləşən 36 nəfər şəxs cinayət məsuliyyətinə cəlb edilmiş, axtarışda olan 31 nəfərin, təqsirləndirilən şəxslərdən 25 nəfərinin tutulması təmin olunmuşdur.

(Ardı 9-cu səhifədə).